Xoralar (yaralar) bir birinə oxşar olduğu üçün yara törədicilərini bir birindən differensasiya etmək olduqca çətinləşir.

Qeyd edilən xəstəliklərin törədicilərini dəqiq və qısa zamanda təyin etmək üçün sizə "Genital Ulcer Paneli"ni təqdim edirik.

- Herpes simplex virus type 1 (HSV-1)
- Herpes simplex virus type 2 (HSV-2)
- Varicella-zoster virus (VZV)
- Cytomegalovirus (CMV)
- Lymphogranuloma venereum (LGV, Chlamydia trachomatis Serovar L)
- Treponema pallidum (TP)
- Haemophilus ducreyi (HD)

Bu müayinə genital xoraların (yaraların) müalicəsi zamanı onun bakterial və ya virus mənşəli olmasından aslı olaraq dərman preparatlarının düzgün seçimi üçün vacibdir. Effektiv nəticə ələdə etmək üçün multipleks PZR üsulundan istifadə edin!

MATERİAL

- Genital yaxma (uretral, vaginal, servikal)
- Maye əsaslı sitoloji nümunə (məsələn, ThinPrep® və SurePath ™)
- Sidik

Referans Klinik Laboratoriya Mərkəzi & Poliklinik

***0033**
ÇAĞRI MƏRKƏZİ

- **Referans Klinik Laboratoriya Mərkəzi:** Nərimanov ray., M. Məmmədzadə küç. 8A
- **Referans Poliklinik Nəsimi filialı:** Nəsimi ray., M. Mirqasımov küç. 25A
- **Referans VIP filialı:** Səbail ray., Z. Əliyeva küç. 107A
- **Referans Poliklinik Əhmədli filialı:** Xətai ray., M. Hadi küç. 229D
- **Referans Poliklinik Mərdəkan filialı:** Xəzər ray., Mərdəkan qəs., Yesenin küç. 58
- **Referans Poliklinik Bayıl filialı:** Səbail ray., Ak. Ə. Yaqubov küç. 19
- **Referans Binəqədi filialı** (8-ci Stomatoloji Poliklinika)**:** Binəqədi ray., Azadlıq pr. 167
- **Referans Sumqayıt Tibb Mərkəzi:** Sumqayıt şəh., S. Vurğun küç. 119
- **Referans Səyyar Ağstafa filialı:** Ağstafa şəh., Dəmiryolu vağzalı dax.
- **Referans Qəbələ Tibb Mərkəzi:** Qəbələ şəh., A. Səhhət küç. 25A
- **Referans İsmayıllı Səyyar Qanalma Məntəqəsi:** İsmayıllı şəh., M. F. Axundov küç. 65
- **Referans Quba Tibb Mərkəzi:** Quba şəh., M. Qorki küç.
- **Referans Qusar filialı:** Qusar şəh., Məlikov küç. 1A.
- **Referans Xaçmaz Tibb Mərkəzi:** Xaçmaz şəh., N. Nərimanov küç. 49 (keçmiş NK-AY klinikası)
- **Referans Lənkəran filialı** (Avicenna Medical Center dax.): Lənkəran şəh., S. Bayramov küç. 19
- **Referans Masallı Tibb Mərkəzi:** Masallı ray., Qarabağ küç. 20

Referans ESTETİK MƏRKƏZİ	Gözəlliyinizi Bizə ƏMANƏT Edin!	*0033 ÇAĞRI MƏRKƏZİ
36.6 med Referans|Gəncə	Sizin sağlıq məkanınız!	*0033 ÇAĞRI MƏRKƏZİ
Referans AMBULANCE	Azərbaycanın ilk ÖZƏL Təcili Tibbi Yardım və Hava Ambulansı xidməti	*0003 ÇAĞRI MƏRKƏZİ
Referans EŞİTMƏ MƏRKƏZİ	Eşitmək **SƏNİN** haqqındır!	*0111 ÇAĞRI MƏRKƏZİ
ikinci nəfəs	Bizimlə tütünsüz həyata keç!	*3300 ÇAĞRI MƏRKƏZİ
TOLERANS	Sərhədsiz ünsiyyət üçün ilk addım..	

Referans MEDICAL GROUP | Klinika Referans Medical Group daxilində fəaliyyət göstərir

info@referansclc.com
www.referansclc.com

Referans Klinik Laboratoriya Mərkəzi & Poliklinik



Genital Ulcer Paneli

Referans MEDICAL GROUP | Klinika Referans Medical Group daxilində fəaliyyət göstərir

*0033
ÇAĞRI MƏRKƏZİ

Cinsi orqanlarda yaranan xoraların əksəriyyəti cinsi yolla keçən infeksiyalar (CYKİ) tərəfindən törədilir, baxmayaraq ki, qeyri-infeksion etiologiyalar da mövcuddur, bunlara CYKİ-lər istisna edildikdən sonra diqqət yetirilməlidir. Genital xora vulvada, cinsi orqanlarda, perianal bölgədə və ya anusda yerləşə və bir neçə xəstəlik fonunda yarana bilər. Genital xoraya əsasən Treponema Pallidum (sifilis), Hemophilus ducreyi (şankroid), Calymmobacterium granulomatis (granuloma inguinale), invaziv Chlamydia trachomatis (lymphogranuloma venereum), HSV1 və HSV2 (herpes), CMV (sitomeqalovirus), VZV (varisella zoster virus) səbəb olur.

GENİTAL ULCERİN SƏBƏBLƏRİ

İnfeksion; cinsi yolla ötürülən

- Herpes simplex virus tip 1 və 2
- Sifilis (Treponema pallidum)
- Xlamidiya (Chlamydia trachomatis)
- Zöhrəvi limfoqranuloma (Chlamydia trachomatis serovar L1-3)
- İnsan immunçatışmazlığı virusu tip 1 və 2
- Meymun çiçəyi (Monkey pox virusu)
- Şankroid (Haemophilus ducreyi)
- Donovanoz (Klebsiella granulomatis)

İnfeksion; cinsi yolla ötürülməyən

- Varicella zoster virusu
- Bakterial (məsələn, A qrup Streptococcus)
- Kandidoz
- Vərəm
- Leyşmanioz
- Amöbiaz

Qeyri-infeksion (immunoloji, iltihabi, dermatoloji)

- Kəskin genital aftoz xorası (Lipschütz xorası)*
- Dermatoloji (məsələn, dermatit, eroziv qırmızı yastı Dəmrov)
- Behçet sindromu
- Kron xəstəliyi
- Seliakiya xəstəliyi
- Sistem lupus eritematoz
- Autoimmun blisterli dəri xəstəliyi (məsələn, eritema multiforme, pemfiqus, pemfiqoid)
- Stivens-Conson sindromu/toksik epidermal nekroliz
- Travma
- Dərman reaksiyası (məsələn, qeyri-steroid iltihab əleyhinə preparatlar, tetrasiklinlər, sulfanilamidlər)
- Neoplazmalar

Erkən mərhələlərdə genital bölgədəki xoralar kiçik qabarcıqlar və ya səpgilər şəklində olur. Qasıq nahiyyəsində şişkin limfa düyünləri də görünə bilər. Xoralar zamanla dahada pisləşib, irin və ya maye ifraz edə bilərlər.

İNFEKSİON XƏSTƏLİK FONUNDA YARANAN YARALAR

Sifilis (şankr)

Patogen mikroorqanizm: Treponema Pallidum
İD: 9-90 gün
Xüsusiyyətlər:
Genital yara: düyməyə bənzər papula hansı ki, ağrısız eroziyaya çevrilir və daha sonra ətrafı əhatələnmiş az miqdarda seroz ekssudatı olan yaraya çevrilir.
Səthi adətən bərk olur.
Ağrı: ağrısız (əgər S. pallidumla konfeksiya deyilsə)

Şankroid (yumşaq şankr)

Patogen mikroorqanizm: Haemophilus Ducreyi
İD: 4-7 gün
Xüsusiyyətlər:
Genital yara: papula-eritematoz oreola-pustula-eroziya-yara.
Ağrı: ağrılı

Limfoqranuloma Venereum

Patogen mikroorqanizm: Chlamydia Trachomatis (serotip L)
İD: 1-ci mərhələ 3-12 gün
2-ci mərhələ 10-30 gün
Xüsusiyyətlər:
Genital yara: balaca, ağrısız papula və ya vezikula, hansı ki yaraya çevrilir. Limfa vəziləri böyüyür. Tək və ya qrup şəklində.

Genital Herpes

Patogen mikroorqanizm: HSV-2 =90% hallarda
HSV-1 =10 % hallarda
Xüsusiyyətlər:
Genital yara: eritematoz sahələr-qruplaşmış vezikullar-pustulalar-eroziyalar-yaralar.

CMV infeksiya

Patogen mikroorqanizm: Cytomegalovirus (CMV)
İD: 20-60 gün
Xüsusiyyətlər: *

Su Çiçəyi-Qurşaqlı Uçuq

Patogen mikroorqanizm: Varicella Zoster Virus (VZV, HHV-3)
İD: 7-21 gün
Xüsusiyyətlər: *

*Varisella Zoster virus infeksiyası (suçiçəyi) eynən Herpes viruslardan olub, kliniki əlamətlər özünü eyni göstərə bilər (eritematoz sahədə kümələnmiş vezikullar və ya yaralar). Ancaq varisella zosterin dermatomal dağılmaya malik olması onu Herpes virus infeksiyasından fərqləndirir.
**HSV yaraların əsl patogen amili olsada, bəzi hallarda müayinələr zamanı genital yaraların törədicisi kimi CMV təyin edilə bilir.

Bəzi genital xoralar heç bir simptoma səbəb olmur, digərləri isə ağrılı olur.

Simptomlar:

- Yanma hissi
- Qızdırma
- Genital bölgədə qaşınma
- Ağrılı sidik ifrazı və ya cinsi əlaqə
- Pis qoxuya malik vaginal axıntı